**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ ŞAGİRDLƏRİN VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSİ ÜZRƏ İŞİN SİSTEMİ

| | |
|---|---|
| İxtisas**:** | 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| Elm sahəsi: | Pedaqogika |
| İddiaçı: | **Sevil Əhməd qızı Abdinova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

Bakı - 2021

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Təhsil Nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqogika üzrə elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

Rəsmi opponentlər:

Pedaqogika elmləri doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

Pedaqogika elmləri doktoru, professor
**Kərim Alı oğlu Məmmədov**

Pedaqogika üzrə elmlər doktoru, dosent
**Şəhla Qasım qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

Tarix üzrə elmlər doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi:

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri:

Pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafı, ictimai fəaliyyətə və həyata hazırlanması, onda müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılması bütün dövrlərdə olduğu kimi, bu gün də cəmiyyətin ən aktual məsələlərindən biridir.

Müasir təhsil və tərbiyə sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə və mənəvi keyfiyyətlərə malik olan şəxsiyyət formalaşdırmaq, xalqın milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnmiş, onu qoruyan və daim inkişaf etdirən, öz ailəsini, vətənini, millətini sevən, fiziki və əqli cəhətdən sağlam yurddaşlar yetişdirməkdir. Müasir ümumtəhsil məktəblərində müstəqil, yaradıcı düşünən, yüksək mədəniyyətə və milli-mənəvi keyfiyyətlərə malik şəxsiyyətin tərbiyə edilməsi dövlət və ümumxalq əhəmiyyətli bir məsələdir. Məktəbdə bütün fənlərin, xüsusi ilə də humanitar fənlərin tədrisi prosesində şagirdlər öz xalqının maddi və mənəvi dəyərləri barədə məlumatlanır, nəsillərin tarixi-əxlaqi ənənələri əsasında formalaşıb mənəviyyatca zənginləşirlər. Ümummilli Liderimiz Heydər Əliyev demişdir: "*Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlığını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc - Azərbaycanın gələcək fəal vətəndaşı, gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün, gərək o, vətənpərvərlik hissi ilə yaşasın. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər*".

Bizim hər birimiz Azərbaycan Respublikasında yaşayırıq və bu ölkənin vətəndaşlarıyıq. Böyüklü-kiçikli hamımız bu torpağa borcluyuq. Hər birimiz ona sədaqətli olmalı, müqəddəs vətən torpağının qorunması üçün lazım gəlsə, canımızdan belə keçməyi bacarmalı və bunu özümüzün müqəddəs borcumuz hesab etməliyik. Nəzərə almaq lazımdır ki, harada yaşamasından asılı olmayaraq dünyadakı yetmiş milyonadək azərbaycanlının hamısının bir Vətəni var - gündən-günə güclənən, çiçəklənən, beynəlxalq aləmdə böyük

nüfuz qazanan Azərbaycan Respublikası.

Apardığımız tədqiqatın mövzusuna dair həyata keçirdiyimiz referativ araşdırmalar göstərir ki, uzun və mürəkkəb bir tarixi inkişaf yolu keçmiş Vətənimiz çox hadisələrin şahidi və iştirakçısı olmuşdur. Ölkə vətəndaşlarından kimisi Vətən yolunda qəhrəmanlıq göstərmiş, şəhid olmuş, kimisi bu müsibətə tab gətirə bilməmiş, ürəyi dözməmiş və dünyasını dəyişmişdir. Çox təəssüf ki, bu müsibətlərə etinasız yanaşanlara, torpağından, doğma ocağından, elindən-obasından didərgin salınmış, simasız erməni vəhşilərinin qəddar və amansız rəftarından hədsiz iztirab çəkmiş, şəhidlər vermiş həmvətənlərinin halına biganə olanlara, alovlanan, dağıdılan evlərin, ocaqların, kəndlərin, obaların, milli-mənəvi dəyərlərin, maddi-mənəvi irsin dağıdılmasına etinasızlıq göstərənlərə də təsadüf etmək olur. Rahat və daha firavan yaşamaq üçün, bəzən isə ölkəmizin maddi sərvətlərlə zənginliyindən, buradakı istehsal, qurub-yaratmaq imkanlarından xəbərsiz olduqlarından nəinki təhsilsiz və xüsusi peşə və ixtisas sahibi olmayan, hətta bu ölkənin, Dövlətimizin vəsaitləri hesabına Azərbaycan Respublikasında və ya xarici ölkələrdə təhsil almış, öz millətinə, xalqına, vətəninə xeyir verə bilən insanlar da Vətənimizi tərk edir, öz əqli və fiziki əmək qabiliyyətlərini başqa ölkələrin mənafeyinə işlədirlər.

Belə bir vaxtda gənc nəslin, xüsusilə də ibtidai sinif şagirdlərinin doğma vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi məsələsi daha böyük aktuallıq və əhəmiyyət kəsb edir.Hazırki dövrdə, qloballaşma şəraitində doğma vətənə məhəbbət, vətənpərvərlik tərbiyəsinin formalaşdırılması, ilk növbədə hər bir Vətən övladını dünyada baş verən ictimai-siyasi hadisələr və yaranan gərginliklər barədə məlumatlandırmaqdan, onlarda Vətənə məhəbbətin təzahür forması olan qəhrəmanlıq, mərdlik, cəsurluq, qorxmazlıq kimi yüksək mənəvi keyfiyyətlər aşılamaqdan, Vətənin qeyrətli oğullarını yolundan sapdırmağa çalışanlara qarşı ciddi mübarizə aparmaqdan ibarət olub, dözümlü və çevik olmaq, iradəli səy göstərmək, qətiyyətli hərəkət etmək və Vətən torpağını düşmən qəsdindən daim qorumaq zərurəti ilə bağlıdır.

Vətənə məhəbbətin - vətənpərvərliyin dərin və tarixi kökləri vardır. Bu məhəbbət hər bir insanın öz doğma ata ocağına, doğma

yurduna, elinə, obasına, millətinə, onun dilinə, dininə, müqəddəs adət-ənənələrinə, dövlətçiliyinə, qanunlarına olan sevgi və sədaqətin ifadəsi kimi meydana gəlmişdir. Vətənə məhəbbət - vətənpərvərlik insana xas olan ən dərin, ən müqəddəs və ən ülvi ali hisslərdən, duyğulardandır. Hər bir insanın əsil dəyəri onun öz Vətəninə, millətinə xidməti ilə, əsil insanlıq ləyaqəti, vicdanı və şərəfi ilə, vətənpərvərlik hissi ilə ölçülür.

Milli əxlaqımız tələb edir ki, gənc nəsil hər an, hər bir şəraitdə özünü vətənin bir övladı, xalqın bir hissəsi, çalışdığı kollektivin bir üzvi hesab etsin, vətənin, xalqın əmin-amanlığı uğrunda çalışsın, öz şəxsi səadətini vətənin, xalqın xeyrinə fəaliyyət göstərməkdə görsün, vətən və xalq naminə hər cür fədakarlığa, mübarizəyə hazır olsun.

Vətənə məhəbbət, vətənpərvərlik hissi insanlarda hələ lap erkən yaşlarından özünü biruzə verir.Hər bir uşaq ilk əvvəl öz ata və anasının, doğulub böyüdüyü ailənin digər üzvlərinin mehriban münasibətlərindən, onların tərəfindən əzizlənməsindən xoşhal olur, valideynlərin öz aralarındakı münasibətlərinə emosional reaksiya verir. Məhz bu vaxtlardan başlayaraq Vətənə məhəbbət uşaqda valideynlərinə, ailənin digər üzvlərinə, qohumlarına bağlılıq şəklində özünü göstərir. Sonralar bu hiss bir sıra amillərin təsiri altında daha da formalaşır və püxtələşir. Əxlaqi hisslər-Vətənə məhəbbət, vətənpərvərlik, yoldaşlıq, dostluq, sevinc, şərəf, ləyaqət, iradəli səy, müdriklik, qorxmazlıq, qətiyyət, səmimilik, doğruçuluq, düzgünlük, etibarlılıq, sədaqətlilik, həya, abır, qəzəb, nifrət, vicdan, namus və s. uşağın doğma ocağa, elə, obaya, torpağa bəslədiyi münasibətlərində ifadə olunur.

Mənəvi tərbiyənin, Vətənə sevginin bünövrəsi erkən uşaqlıq yaşlarından qoyulur. Yaşadığımız dövrə, cəmiyyətə layiq nəsil tərbiyə edib yetişdirmək üçün bünövrəyə xüsusi fikir verilməlidir. Çünki bünövrə möhkəm olmasa, işin sonrakı mərhələsinin müvəffəqiyyətlə getməsi qeyri-mümkündür. Bu məsələ konkret şərait, imkan, milli xüsusiyyətlər, ehtiyaclar nəzərə alınmaqla optimal yollarla həll olunmalıdır.

Uşaqların mənəvi tərbiyəsi, xüsusən Vətənə məhəbbət - vətənpərvərlik tərbiyəsi onların fərdi işi ola bilməz. Bu iş ictimai xarakter daşıyır, hamıda və hər bir uşaqda mənəvi tərbiyənin

səviyyəsinin yüksəlməsində bütün cəmiyyət maraqlıdır. Bu baxımdan ibtidai sinif şagirdlərinin milli-mənəvi tərbiyəsi bütün xalqın, dövlətin, təhsil müəssisələrinin, ailənin müqəddəs vəzifə borcudur.

Təbii ki, heç bir insan hazır mənəvi hisslərlə, keyfiyyətlərlə doğulmur. Bu hisslər insanda zaman keçdikcə tərbiyə olunur. İnsanın düzgün mənəvi tərbiyəsi ondan bəşəriyyət tərəfindən yaradılmış mənəvi sərvətləri mənimsəməyi, fərdi meylləri, zövq və maraqları mütləq inkişaf etdirməklə mənəviyyatın hamı üçün məcburi olan normalarını bilməyi tələb edir. Gənc nəsil elə yetişdirilməlidir ki, o, ölkənin müqəddəratı üçün tarixi məsuliyyətin yükü altında sarsılmasın, əyilməsin, yaşlı nəsillərin təcrübəsini nəinki mənimsəməyi, həm də öz işləri ilə zənginləşdirməyi bacarsın. Məktəbin, cəmiyyətin və ailənin borcu və vəzifəsi uşaqlarda gələcəyə inam, müstəqil yaradıcı təfəkkür qabiliyyəti formalaşdırmaqdan, müstəqil, azad, gündən-günə çiçəklənən gözəl vətənimizin müqəddəratı üçün onlarda məsuliyyət hissini gücləndirməkdən və əlbəttə ki, xalqımıza yad olan baxışlara və adətlərə qarşı möhkəm immunitet yaratmaqdan ibarətdir. Bu vacib və zəruri məqsədin, vəzifənin reallaşdırılması işi, təbii ki, uşağın doğulub-böyüdüyü ailədən başlanır və ümumtəhsil məktəblərinin ibtidai siniflərində inkişaf etdirilir. Çünki ibtidai siniflər uşaqların təlim-tərbiyəsində ilkin və mühüm mərhələdir. Yeni nəslin formalaşmasında dərin və əhatəli biliklərin, savadlılığın, habelə mənəvi yüksəkliyin möhkəm bünövrəsi məhz bu mərhələdə qoyulur. Təlim və tərbiyənin vəhdəti əsasında uşaqlara Vətən, Ana sözlərinin dərin mahiyyətini, doğma vətənin gözəlliyini və zənginliyini, əməyin yaratdığı xarüqələri, dostluğu, ədaləti, şərəf və ləyaqəti, səmimiliyi, namus və qeyrəti, etibarlılığı, mərdliyi, qəhrəmanlığı və s. başa düşmək, qiymətləndirmək bacarığı bu mərhələdə aşılanır. İbtidai təhsil səviyyəsində bu problemin mahiyyətini və məzmununu, forma və vasitələrini tədqiq etmək, şagirdlərin vətənə məhəbbət ruhunda tərbiyə edilməsinin səmərəli yollarının və əhəmiyyətinin öyrənilməsi müasir məktəb pedaqogikasının ən aktual problemlərindəndir.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi probleminin tədqiqi pedaqoji aləmdə heç də yeni məsələ deyil. İndiyədək

ümumiyyətlə vətənpərvərlik tərbiyəsinin mahiyyəti və məzmunu, onun ümumi xarakter daşıyan məsələləri, müxtəlif fənlərin vətənpərvərlik tərbiyəsi baxımından imkanları, məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəri məsələləri, təlim fənlərinin, muzeylərin, maddi və mənəvi irsin, abidələrin, dərsdənkənar tədbirlərin şagirdlərin vətənpərvərlik tərbiyəsindəki rolunun aydınlaşdırılması istiqamətində kifayət qədər elmi məqalələr, kitablar və kiçik həcmli kitabçalar yazılmış, dissertasiyalar müdafiə olunmuşdur.Bu görülən işlər bütövlükdə Azərbaycan Respublikasında pedaqogika elminin formalaşması və inkişafı üçün böyük əhəmiyyət kəsb etsə də, ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi üzrə işin sistemi bir problem olaraq hələ də özünün tam və hərtərəfli həllini tapmamışdır. Bu gün həmin məsələ ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixinin aktual problemlərindən biri kimi gündəmdədir. Çünki zaman keçdikcə ictimai, iqtisadi, beynəlxalq və geosiyasi münasibətlər, dövlətçilik prinsipləri, milli-mənəvi dəyərlərə baxış tərzi, ölkənin maddi və mənəvi sərvətlərinin aşkarlanması vəziyyəti dəyişdikcə bu problemin tədqiq olunmasının daha yeni məsələləri meydana gəlir və həmişə də belə olacaqdır.

Dissertasiyada tədqiqi qarşıya qoyulan mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, müasir qloballaşma şəraitində kiçik yaşlı uşaqlar, yeniyetmə və gənclər arasında Qərb və Avropa tərbiyəsinə, adət-ənənələrinə kor-koranə meyl, aludəçilik artır, milli-mənəvi cəhətdən yoxsullaşma, ata-baba adət və ənənələrindən uzaqlaşma hallarına tez-tez rast gəlmək olur.Qeyd etmək lazımdır ki, milli-mənəvi dəyərlərə münasibət heç də ilahi, fitri qabiliyyət deyil, o, hər bir uşağın yaşadığı ictimai-siyasi və iqtisadi şəraitdə, xalqın adət-ənənələrinə yad olmayan ailə münasibətlərində, məktəbdə, rəsmi tənzimlənən siyasi və iqtisadi şəraitin təsiri altında formalaşır. İbtidai təhsil səviyyəsində şagirdlərin vətənə məhəbbət ruhunda tərbiyəsi, onun mənəvi saflığı böyüklərin, müəllimlərin, bütünlükdə ictimaiyyətin müqəddəs vəzifəsi olmaqdadır.

Apardığımız tədqiqatın mövzusunun aktuallığına dəlalət edən digər bir cəhət isə müstəqil Azərbaycan Respublikası adlı vətənini sevən, ona məhəbbət bəsləyən və onu qorumağı bacaran vətəndaşların yetişdirilməsi üçün mənəvi tərbiyə işinin milli zəmində

müasir mövqedən tədqiq edilməsi zərurətidir. Öz soy kökümüzə qayıdışımız, tarixi keçmişimizi, milli mənliyimizi, milli müstəqilliyimizi tanıdığımız hazırki dövrdə ibtidai təhsil səviyyəsində şagirdlərin milli-mənəvi tərbiyə işinin, xüsusi ilə də onlarda Vətənə məhəbbət hissinin tərbiyəsinin düzgün istiqamətləndirilməsi və həmin zəmində ibtidai sinif müəllimlərinə elmi-nəzəri cəhətdən əsaslandırılmış metodik məsləhət və tövsiyələrin verilməsi vacibdir.

**Tədqiqatın obyekti** - ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsidir.

**Tədqiqatın predmeti** - tədris prosesində və dərsdəndənkənar tədbirlərdə ibtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyəsi işinin təşkili yollarının və imkanlarının araşdırılmasıdır.

**Dissertasiya işinin məqsədi** ibtidai təhsil səviyyəsində tədris olunan fənlərin və həyata keçirilən dərsdənkənar tədbirlərin şagirdlərin vətənpərvərlik - Vətənə məhəbbət ruhunda tərbiyəsi işindəki imkanlarını və onlardan səmərəli istifadə yollarını müəyyənləşdirməkdir.

**Vətənə məhəbbət tərbiyəsi işinin məzmunu**. Vətənə məhəbbət hisslərinin tərbiyəsi işi yalnız şagirdlərdə cəngavərlik - vətən torpağını qorumaq üçün can verməyə, qan tökməyə hazır olmaq ruhu tərbiyə etməkdən ibarət deyil. Bu işin başlıca məqsədi Vətəninin müdafiəsinə və qorunmasına səfərbərliklə yanaşı, həm də bütövlükdə onun təbiətinə, müxtəlif növ maddi və milli-mənəvi sərvətlərinə, görkəmli elm, təhsil və ictimai xadimlərinə, əmək adamlarına sevgi, eləcə də dövlətçiliyinə, ərazi bütövlüyünə, vətəndaşlarına, onların milli qüruruna, dini etiqadına, adət-ənənələrinə sevgi, hörmət və məhəbbət hisslərini birləşdirən inteqrativ pozitiv keyfiyyətlərin formalaşdırmaqdan ibarət olmalıdır.

**Dissertasiya işində qarşıya qoyulan məqsədə nail olmaq üçün həll edilmiş məsələlər**. Dissertasiya işində qarşıya qoyulan məqsədə nail olmaq üçün:

- tədqiqi nəzərdə tutulan problemə dair mövcud olan elmi ədəbiyyatın təhlili aparılaraq, mövzunun aktuallığı, əvvəllər öyrənilmə səviyyəsi və tədqiqatın uğurla aparıla bilməsi üçün həmin mənbələrə istinad imkanları müəyyənləşdirilmiş;
- tədqiq olunan problemin ibtidai siniflərdə tədris olunan

fənnlərə dair proqram, dərslik və dərs vəsaitlərində material baxımından necə əks olunduğu araşdırılmış;

- ibtidai siniflərdə tədris olunan fənlərin tədrisi prosesinin şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi işindəki imkanlarına və həmin imkanlardan istifadə yollarına baxılmış;

- ibtidai siniflərdə şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsinə onlarla keçirilən dərsdənkənar tədbirlərin təsirinin imkan və yolları araşdırılmış;

- məsələyə dair müəyyən mülahizələr irəli sürülmüş və onların sınanılması üçün müxtəlif ümumtəhsil məktəblərində sorğular, testlər, disput və yarışlar şəklində eksperimentlər həyata keçirilmiş;

- toplanmış məlumat və faktların müqayisəli statistik təhlili aparılaraq, mövzuya dair yekun fikir, nəticə və tövsiyələr söylənilmişdir.

**Tədqiqatın fərziyyəsi**. İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi inkişafetdirici təlimdən istifadə edilməklə sistemli, məqsədyönlü və mütəşəkkil şəkildə aparılarsa, həyata keçirilən tədbirlər əvvəlcədən düşünülmüş və elmi əsaslarla planlaşdırılmış qaydada təşkil edilərsə, kəmiyyət göstəriciləri deyil, tədbirlərin keyfiyyəti, başqa sözlə ibtidai sinif şagirdlərinin hiss və duyğularında öz ifadəsini necə tapdığı əsas götürülərsə, onlarda Vətənə məhəbbət - vətənpərvərlik kimi mühüm mənəvi keyfiyyətlər müvəffəqiyyətlə inkişaf edər.

Tədqiqatın məqsədinə və işçi fərziyyəsinə uyğun olaraq qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- Vətənə məhəbbət - vətənpərvərlik anlayışlarının pedaqoji mahiyyətini səciyyələndirmək və problemin tarixi inkişaf baxımından nəzəri əsaslarını şərh etmək;

- İbtidai sinif şagirdlərinin ailədə, məktəbdə və ictimaiyyət arasında Vətənə məhəbbət ruhunda tərbiyəsinin mövcud vəziyyətini araşdırmaq və təhlil etmək;

- Yüksək intellektə malik, sivilizasiyalı cəmiyyətdə yaşaya bilən, rəqabətə davamlı şəxsiyyət kimi formalaşdırılan ibtidai sinif şagirdlərinin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsinin imkanlarının və yollarının səmərəliliyini müəyyənləşdirmək;

- İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi üzrə işin sistemini, həyata keçirilməsi yollarını və vasitələrini müəyyən etmək;

- İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsinin məktəblərdə həyata keçirilmə vəziyyətini öyrənib, qabaqcıl məktəb və səriştəli müəllim təcrübəsini ümumiləşdirərək digər orta məktəblərə tövsiyə etmək;

- Dərsdənkənar (təlimdənkənar) işlərin ibtidai sinif şagirdlərinin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi işindəki imkanlarını araşdırmaq.

Tədqiqatın metodoloji əsasını pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı nəzəri təhlil, müşahidə, müsahibə, anket sorğusu, şagirdlərin yaradıcı işlərinin və məktəb sənədlərinin öyrənilməsi, pedaqoji eksperiment və testləşdirmə kimi tədqiqat metodlarına müraciət edilmişdir. Müşahidə və eksperimentlər başlıca olaraq Bakı, Sumqayıt və Ordubad şəhərlərindəki 16 ümumtəhsil məktəblərində aparılmış, həmin məktəblərin ibtidai siniflərində Azərbaycan dili, Həyat bilgisi, Təsviri incəsənət və Musiqi fənləri üzrə dərslər dinlənilmiş, təhlil edilmişdir.

**Tədqiqatın modeli**. İbtidai siniflər üçün mövcud tədris materiallarının və həmin siniflərdə nəzərdə tutulan dərsdənkənar tədbirlərin şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi imkanlarını, həmin mövzu və tədbirlərin milli mentalitet, milli-mənəvi dəyərlər və dövlətçilik prinsipləri nəzərə alınmaqla, tədqiq olunan məsələdə istifadə yollarını müəyyənləşdirmək, müxtəlif eksperimentlər vasitəsi ilə onların tətbiqinin səmərəliliyini yoxlamaq və alınan nəticəni müqayisəli təhlil əsasında qiymətləndirmək.

**Tədqiqatın elmi yeniliyi**:

- Müasir qloballaşma şəraitində Vətənimiz və xalqımız üçün son dərəcə önəmli rola malik olan, ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi işinin modeli hazırlanmış, bu sıraya ermənilər tərəfindən işğal edilmiş

torpaqlarımızın geri alınması üçün mübarizə aparmış Azərbaycan xalqının qəhrəman övladlarının igidlik yolu da daxil edilmiş və onların sistemi müəyyənləşdirilmişdir;

- Vətənə məhəbbət - vətənpərvərlik tərbiyəsinin mahiyyəti, məzmunu, komponentləri müəyyən olunmuş, qabaqcıl məktəb, müəllim təcrübəsi, eksperimentin nəticələri əsasında onun həyata keçirilməsinin yolları, formaları və vasitələri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqat prosesində problemlə bağlı irəli sürülmüş elmi ideyalar, nəzəri müddəalar, praktik istiqamətlər, tövsiyyələr, məsləhətlər, yanaşmalar pedaqogika nəzəriyyəsini və pedaqoji fikir tarixini zənginləşdirəcək ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi işinin elmi-pedaqoji-metodiki əsaslar üzərində qurulmasına imkan verəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Təklif olunmuş metodların və metodikanın düzgün tətbiqi ibtidai sinif müəllimlərinin pedaqoji ustalığının artırılmasına, tərbiyə işinin keyfiyyətinin yüksəlməsinə təsir göstərə, ibtidai təhsil səviyyəsində şagirdlərin doğma Vətənə məhəbbət hissini yüksəldə bilər. Tədqiqatın nəticələrindən həmçinin ibtidai təhsil üzrə proqram və dərsliklərin təkmilləşdirilməsində, ali və orta ixtisas təhsili məktəblərində müvafiq ixtisaslar üzrə kadr hazırlığı işində istifadə etmək mümkündür.

**Müdafiəyə təqdim edilən başlıca müddəalar:**

- İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsinin məzmununun və mahiyyətinin dəyişilməsi cəmiyyətdə gedən ictimai-siyasi proseslərlə, dövlət müstəqilliyimizlə bilavasitə bağlı olub, şagirdlərin mənəvi baxımından maarifləndirilməsinin səviyyəsindən çox asılıdır.

- Təlim prosesində Azərbaycan dili, Həyat bilgisi, Təsviri incəsənət və Musiqi dərslərində ibtidai sinif şagirdləri ilə bağlı etik normalar, davranış qaydaları, mədəni adətlər və müsbət mənəvi keyfiyyətlərlə, xüsusilə də Vətənə məhəbbət ruhunda tərbiyə ilə əlaqədar aparılan işlər səmərəli və dolğun nəticələrə malik ola bilər.

- İbtidai təhsil səviyyəsində şagirdlərin mənəvi baxımdan inkişafında, təkmilləşməsində və kamilləşməsində, onların əxlaqının saflaşdırılmasında, Vətənə bağlılıq və məhəbbət ruhunda tərbiyə

edilməsində birbaşa təlim prosesində aparılan işlərin dərsdənkənar tədbirlərlə davam etdirilməsi müsbət səmərə verə bilər.

- Vətənimizin dövlət müstəqilliyi və torpaqlarımızın təcavüzkarların işğalından azad edilməsi uğrunda həyatını qurban vermiş Şəhidlərin və Milli Qəhrəmanların həyat yolu ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsində örnək ola bilər.

- İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi işinin modelinin yaradılması və işin bu modellə həyata keçirilməsi həmin istiqamətdə tərbiyənin məzmununun daha da dərinləşməsini təmin edə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işində irəli sürülən tövsiyə və müddəaların reallığı, doğruluğu və zəruriliyi Bakı, Sumqayıt və Ordubad şəhərlərinin bir sıra orta ümumtəhsil məktəblərində keçirilən sorğu, yoxlama işləri, inşa yazılarının nəticələri ilə təsdiq olunmuşdur. Dissertasiya işinin materialları, burada irəli sürülən müddəalar, nəticə və tövsiyələr Bakı Dövlət Universitetində (BDU), Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU), Naxçıvan Dövlət Universitetində (NDU) və Azərbaycan Respublikasının Təhsil İnstitutunda (ATİ) keçirilən Beynəlxalq və Respublika miqyaslı Elmi-Praktik Konfranslarda, elmi və elmi-metodiki seminarlarda müzakirə olunmuşdur.

**Publikasiya.** Dissertasiya işinin materialları müxtəlif elmi məcmuə və nəşrlərdə 6 jurnal məqaləsi (onlardan 2-si xarici ölkələrdə dərc edilən nüfuzlu jurnallarda olmaqla) və 7 konfrans materialı (onlardan 3-ü Beynəlxalq Konfrans olmaqla) çap edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi** tədqiqatın məntiqi və qarşıya qoyulmuş vəzifələrin həlli ardıcıllığı ilə müəyyən olunmuşdur. Dissertasiya işi girişdən - 19885 işarə, 3 fəsildən (I fəsil - 58875 işarə, II fəsil - 103492 işarə, III fəsil – 57801 işarə), nəticələr və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 244665 işarədən ibarətdir.

**Dissertasiya işinin** "İbtidai təhsil səviyyəsində vətənpərvərlik tərbiyəsinin proqram, dərslik və elmi-metodik ədəbiyyatlarda əks olunmasının mövcud vəziyyəti" adlanan **birinci fəsli** iki

yarımfəsildən ibarətdir. “Tədqiq olunan problemə dair elmi ədəbiyyatın təhlili” adlanan **birinci yarımfəsildə** tədqiq edilən problemə dair mövcud olan elmi ədəbiyyat təhlil olunmuş və göstərilmişdir ki, kiçikyaşlı uşaqların Vətənə məhəbbət ruhunda tərbiyəsi məsələsi çox qədim tarixə malik olub, öz əksini şifahi və yazılı ədəbiyyatımızda, o cümlədən, çoxsaylı elmi, publisistik əsərlərdə, Dövlət və Hökümət sənədlərində tapmışdır.İstər sovetlər dönəmində, istərsə də dövlət müstəqilliyimiz bərpa olunduqdan sonrakı illərdə ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi məsələsinin ümumi pedaqoji və psixoloji problemlərinin əsas aspektləri - şəxsiyyətin inkişafı və formalaşması, eləcə də şagirdlərin əxlaq tərbiyəsinin vətənpərvərlik, beynəlmiləlçilik, intizamlılıq, ictimai fəallıq, milli ruh, humanizm, dostluq, düzlük və doğruçuluq, ədalətlilik, halallıq və s. məsələləri pedaqogika üzrə mövcud olan ali məktəb dərsliklərində və dərs vəsaitlərində, dissertasiya işlərində, kitab və elmi məqalələrdə bu və ya digər şəkildə öz əksini tapmışdır. Sovetlər dövrünə təsadüf edən əsərlərdə şərh olunmuş materialların böyük bir qismi, təbii ki, kommunist ideologiyasına xidmət etsə də, həmin əsərlərdə milli mentalitetimizə, xalqımızın adət və ənənələrinə, etnopedaqogikaya aid qiymətli fikirlər də özünə yer tapmışdır. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsinə dair yeni məzmunda daha çox əsərlər yazılmış və müxtəlif nəşrlərdə çap olunmuşdur. Bununla belə, hazırda həmin problemin müasir tələblərə uyğun kompleks şəkildə tədqiq olunmasına və onun sisteminin yaradılmasına böyük ehtiyac duyulmaqdadır.

“Problemin mövcud proqram, dərslik və tədris vəsaitlərində qoyuluşu və işlənmə səviyyəsi” adlanan **ikinci yarımfəsildə** ibtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsi işi siniflər üzrə tədris olunan fənlərin proqram, dərslik və dərs vəsaitlərində öz ifadəsini necə tapması işıqlandırlmışdır (cədvəl 1).

Tədris olunan fənlərin müvafiq dərsliklərində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsinə imkan verən mövzular kompleks şəkildə sistemləşdirilmişdir. Bununla belə, “Musiqi” fənn proqramında uşaq mahnılarının sayının artırılmasına və onların

**Cədvəl 1**

**İbtidai sinif dərsliklərində Vətənə məhəbbət ruhunda tərbiyə imkanlarına malik mövzular**

| № | Fənlər | Vətənlə, vətənpərvərliklə bağlı olan mövzulara ayrılan saatlar | Vətənlə, vətənpərvərliklə bağlı olan mövzuların sayı |
|---|---|---|---|
| **I sinif üzrə** | | | |
| 1 | Azərbaycan dili | 93 | 27 |
| 2 | Həyat bilgisi | 28 | 20 |
| 3 | Texnologiya | 25 | 35 |
| 4 | Təsviri incəsənət | 25 | 16 |
| 5 | Musiqi və nəğmə | 27 | 15 |
| | **Sinif üzrə cəmi** | **198** | **113** |
| **II sinif üzrə** | | | |
| 1 | Azərbaycan dili | 100 | 32 |
| 2 | Həyat bilgisi | 23 | 23 |
| 3 | Texnologiya | 21 | 25 |
| 4 | Təsviri incəsənət | 28 | 10 |
| 5 | Musiqi və nəğmə | 27 | 17 |
| | **Sinif üzrə cəmi** | **199** | **107** |
| **III sinif üzrə** | | | |
| 1 | Azərbaycan dili | 97 | 31 |
| 2 | Həyat bilgisi | 51 | 14 |
| 3 | Texnologiya | 31 | 35 |
| 4 | Təsviri incəsənət | 28 | 20 |
| 5 | Musiqi və nəğmə | 26 | 27 |
| | **Sinif üzrə cəmi** | **233** | **127** |
| **IV sinif üzrə** | | | |
| 1 | Azərbaycan dili | 89 | 57 |
| 2 | Həyat bilgisi | 53 | 16 |
| 3 | Texnologiya | 33 | 35 |
| 4 | Təsviri incəsənət | 27 | 19 |
| 5 | Musiqi və nəğmə | 25 | 25 |
| | **Sinif üzrə cəmi** | **229** | **152** |

rəngarəngliyinə, ana Vətənimizə məhəbbəti, yaradıcı insanların əməksevərliyini, milli-mənəvi dəyərlərimizi, Milli Qəhrəmanlarımızı tərənnüm edən mahnıların daxil edilməsinə ciddi diqqət verilməsinə ehtiyac vardı. Bu sahədə aparılan işlər şagirdlərdə sağlam bədii zövq yaradar, onların bayağı, zərərli, qeyri-bədii mahnılara aludə olmasına yol verməz.

**Dissertasiya işinin ikinci fəsli** "Tədris prosesində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasının imkan və yolları" adlanır və ibtidai siniflərdə tədris olunan fənlərin şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında imkanlarının və həmin imkanlardan istifadə yollarının tədqiqinə həsr olunmuşdur. "İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyəsində "Azərbaycan dili" fənninin imkanları və həmin imkanlardan istifadə yolları" adlanan **birinci yarımfəsildə** "Azərbaycan dili" fənninin ibtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi işindəki imkanları və bu imkanlardan istifadə yolları tədqiq olunmuşdur. Göstərilmişdir ki, şagirdlərin dərslikdəki həmin məsələ ilə bağlı mövzuları daha yaxşı mənimsəmələri üçün məktəblərdə vətənpərvərlik tərbiyəsi ilə bağlı xüsusi guşələrin, muzeylərin, stendlərin təşkil olunması məqsədəuyğun olardı. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi işinin ən optimal və sərfəli yolu bu hissləri dərsliklərdəki materiallar vasitəsi ilə aşılamaqdır. Mövcud dərsliklərdə bununla bağlı kifayət qədər mövzu və şəkillər verilmiş olsa da, bir sıra hallarda həmin mövzuların sonunda və şəkillərin altında qoyulan suallar birbaşa mövzu ilə bağlı deyildir. Nəzərə almaq lazımdır ki, şagird dərsliklərdə verilən sualların cavabını axtarmaqla həm tərbiyə olunur, həm inkişaf etdirilir, həm də axtarıcılığa sövq edilir. Bir neçə ümumtəhsil məktəblərinin ibtidai siniflərində apardığımız sorğu və eksperimentlər mülahizələrimizin doğruluğunu təsdiq etdi.

İbtidai sinif şagirdlərinin vətənpərvərlik ruhunda tərbiyəsinin optimal yollarından biri də doğma Vətənin təbiətinin, maddi sərvətlərlə zənginliyinin, görkəmli tarixi şəxsiyyətlərinin həyat və fəaliyyətinin, tarixi abidələrinin öyrənilməsi, xalq yaradıcılığı, o cümlədən, şifahi xalq ədəbiyyatı nümunələrindən məharətlə istifadədir. Apardığıız araşdırmalar və eksperimentlərin nəticələri göstərir ki, ibtidai siniflərin "Azərbaycan dili" dərslikləri şagirdlərin

vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük imkanlara malikdir. Bunu III sinifdə tarixi abidələrimizin tədrisinə həsr olunmuş mövsu üzrə apardığımız eksperimentin nəticələri bir daha sübut edir. 26 nəfərdən ibarət kontrol və eksperiment sinif şagirdlərinə verilən 5 suala (1. Vətənpərvərlik dedikdə siz nəyi başa düşürsünüz? 2. Vətənin tarixi abidələrini öyrənmək, onları qorumaq vətənpərvərlikdirmi? 3. Siz özünüzü vətənpərvər hesab edirsinizmi? Nə üçün? 4. Siz Vətən üçün hansı işləri görərdiniz? 5. Vətənə nə üçün Ana Vətən deyirlər?) alınan cavablar da fikrimizi təsdiq edir. Eksperimentin nəticəsinə nəzər salaq (cədvəl 2).

**Cədvəl 2**

**Tarixi abidələrimizə həsr olunmuş mövzunun tədrisində şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinin nəticələri**

| Siniflər | Suallar | Şagirdlərin sayı | Cavablar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | dolğun | | yarımçıq | | yanlış | | bitərəf | |
| | | | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz | nəfər | Faiz |
| III a eks. | 1 | 26 | 18 | 69 | 7 | 27 | 1 | 4 | - | - |
| | 2 | | 14 | 54 | 11 | 42 | 1 | 4 | - | - |
| | 3 | | 14 | 54 | 10 | 38 | 2 | 8 | - | - |
| | 4 | | 14 | 54 | 10 | 38 | 1 | 4 | 1 | 4 |
| | 5 | | 15 | 58 | 10 | 38 | - | - | 1 | 4 |
| III b kontrol | 1 | 26 | 5 | 19 | 4 | 15 | 10 | 38 | 7 | 28 |
| | 2 | | 7 | 28 | 8 | 31 | - | - | 11 | 41 |
| | 3 | | 9 | 34 | 15 | 58 | 2 | 8 | - | - |
| | 4 | | 1 | 4 | 17 | 66 | 4 | 15 | 4 | 15 |
| | 5 | | 0 | 0 | 19 | 73 | 4 | 15 | 3 | 12 |

Beləliklə, aparılan araşdırma və təhlillərin, sorğu, müsahibə, müşahidə və eksperimentlərin nəticələri göstərdi ki, ibtidai siniflərin mövcud "Azərbaycan dili" dərslikləri şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük imkanlara malikdir. Həmin imkanlardan səmərəli istifadə etmək isə hər bir müəllimdən pedaqoji ustalıq tələb edir.

**Dissertasiya işinin ikinci fəslinin** "İbtidai sinif şagirdlərinin

Vətənə məhəbbət ruhunda tərbiyəsində “Həyat bilgisi” fənninin imkanları və ondan istifadə yolları” adlanan **ikinci yarımfəslində** göstərilmişdir ki, ibtidai siniflər üçün “Həyat bilgisi” dərsliklərindəki istər Vətənin təbiəti, maddi-mənəvi sərvətləri, istərsə də tarixi barədəki bir sıra mövzular şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etmək imkanlarına malikdir.Bu fikir Bakı şəhərinin bir neçə ümumtəhsil məktəbinin III siniflərində apardığımız eksperimentin nəticələri ilə də təsdiq olunmuşdur. Eyni zamanda müəyyənləşdirilmişdir ki, ibtidai sinif müəllimləri şagirdlərin vətənpərvərlik tərbiyəsinə nail olunmasına və bunun onların mənəviyyatına, əqidəsinə çevrilməsinə çox əhəmiyyət verir və yeri gəldikcə bu hisslərin dərinləşməsi üçün uzunmüddətli tədbirlərin keçirilməsinə ciddi cəhd göstərirlər. Eksperiment sinifdə eksperimentdən əvvəl və sonra aparılan sorğunun nəticələrinə nəzər salaq (cədvəl 3).

**Cədvəl 3**

**Eksperimental siniflərdə sorğuya alınan cavablar**

| Suallara cavablar | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Eksperimentdən əvvəl | | | | | | | | | Eksperimentdən sonar | | | | | | | |
| Eksperiment | Şagirdlərin sayı | Tam düzgün cavab | Əsasən düzgün | Faizlə | Yarımçıq cavab | Faizlə | Cavab vermədi | Faizlə | Tam düzgün cavab | Faizlə | Əsasən düzgün | Faizlə | Yarımçıq cavab | Faizlə | Cavab vermədi | Faizlə |
| 20 | 27 | - | 2 | 7.4 | 2 | 7.4 | 23 | 85.1 | 10 | 37 | 9 | 33.3 | 6 | 22 | 2 | 7.4 |
| 53 | 29 | - | 3 | 10 | 5 | 17 | 21 | 72 | 12 | 41.3 | 10 | 34.5 | 6 | 21 | 1 | 3.2 |
| 158 | 25 | - | 2 | 8 | 3 | 12 | 20 | 80 | 13 | 52 | 8 | 32 | 3 | 12 | 1 | 4 |

Bununla belə düşünürük ki, həmin dərsliklərə böyüyən nəslin vətənpərvərlik tərbiyəsi ilə bağlı daha artıq mövzular daxil etmək məqsədəuyğun olardı.

Dissertasiya işinin ikinci fəslinin “İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasında “Musiqi” fənninin yeri” adlanan **üçüncü yarımfəslində** şagirdlərin Vətənə məhəbbət

ruhunda tərbiyə edilməsində Musiqi fənninin imkanları və bu imkanlardan istifadə yolları araşdırılmışdır. Müəyyənləşdirilmişdir ki, ümumtəhsil məktəblərinin ibtidai siniflərində keçirilən musiqi dərsləri şagirdləri musiqi savadına yiyələndirməklə yanaşı, eyni zamanda onlara bəstəkarlar haqqında məlumat verir, hər hansı musiqi əsərinin təsvir etdiyi hadisələri real həyat prototipi ilə uzlaşdırır. Musiqi dərslikləri sözügedən məsələlərin həyata keçirilməsində və ibtidai sinif şagirdlərinin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük imkanlara malikdir. Onlar həm də şagirdlərdə millilik, azərbaycançılıq, öz tarixi köklərinə bağlılıq hisslərini formalaşdırır. İbtidai siniflərin "Musiqi" dərsliklərində bu baxımdan zəngin material verilmişdir.

Hər bir xalqın qədim tarixə malik sevimli sənət inciləri vardır. Azərbaycan xalqına məxsus olan tar, kamança, qaval kimi musiqi alətləri də məhz belə incilər sırasına daxildir. Onların yalnız azərbaycanlılara məxsus olduğunun ibtidai sinif şagirdlərinin nəzərinə çatdırılması çox vacib məsələlərdəndir və bu məsələ də ibtidai sinif dərsliklərində öz layiqli həllini tapmışdır. II-IV siniflərin "Musiqi"dərsliklərində verilmiş milli rəqslərimiz şagirdlərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynayır (cədvəl 4).

**Cədvəl 4**

**Vətənpərvərlik hisslərinin ifadə forması olan milli rəqslər**

| № | Rəqslər | Rəqslərin ifa tərzi | Vətənpərvəlik formaları |
|---|---|---|---|
| 1 | Yallı | Qadın və kişilərin və ya tək qadınların, yaxud tək kişilərin ifadə etdiyi rəqs | Vətənə bağlılıq, doğma diyara məhəbbət yaradır |
| 2 | Nəlbəki | Yalnız qızlar tərəfindən ifa edilir. Qızların əlində nəlbəki olur. | Bayram əhval-ruhiyyəsi yaradır. Vətən qızlarına hörmət və qayğı tərbiyə edir. |
| 3 | Novruz-gülü | Bahar müjdəli, novruz çiçəyinin adından götü-rülən rəqs | Milli bayramlarımıza məhəbbət, onu qorumaq bacarığı formalaşdırır. |
| 4 | Uzun- | Qarabağda, Ağdam | Qarabağı tanıtmaq, ona |

| | | | |
|---|---|---|---|
| | dərə | rayonunun yaxınlığındakı Uzundərə ərazisinin adı ilə bağlıdır. | məhəbbət hissi yaradır. |
| 5 | Tərəkəmə | Qadın və kişilər birlikdə ifa edirlər. | Vətən övladlarına sevgi və məhəbbət formalaşdırır. |
| 6 | Cəngi | Oğlanlar ifa edir | Qəhrəmanlıq, cəngavərlik, döyüş ruhu yaradır. |
| 7 | Qaytağı | Kişilər tərəfindən çox cəld ifa edilir. Azərbaycanda bu əsərin fortopianoda mahir ifaçısı xalq artisti, professor Fərhad Bədəlbəylidir. | Milli rəqslərimizə rəğbət, Azərbaycanın musiqi ustalarına hörmət və məhəbbət formalaşdırır. |
| 8 | Hürzəyi | Toy şənliklərində qadın və kişilərin birgə ifa etdikləri rəqs | Milli adət-ənənələrimizə məhəbbət, sevgi hissi yaradır, qarşılıqlı hörmət bacarığı formalaşdırır. |

Aparılan araşdırmalardan belə qənaətə gəlinmişdir ki, musiqi dərslərində Vətənpərvərlik hissləri yarada biləcək müvafiq mərhələlərə əməl etmək zərurət yaradır:

- təlim prosesində Vətənpərvərlik hisslərinin yaradılması üçün müvafiq üsul və vasitələrin seçilməsi;
- Azərbaycan xalqının milli adət və ənənələrindən istifadənin yerinin müəyyənləşdirilməsi;
- Vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasına kömək edən musiqi nümunələrinin bu tonda köklənməsi.

Yarımfəsildə milli musiqimizin bütün incəlikləri üzə çıxarılaraq onların şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsində rolu aydınlaşdırılmışdır. Rəngarəngliyi, əhatəliliyi ilə seçilən xalq musiqimizi müvafiq qaydada qruplaşdırmaq məqsədəuyğun sayılmışdır.

Aparılan sorğular, eksperiment nəticələri göstərir ki, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük ehtiyac vardır.

Dissertasiya işinin ikinci fəslinin "İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasında "Təsviri incəsənət" fənninin imkanları və onlardan istifadə yolları" adlanan **dördüncü yarımfəslində** aparılan tədqiqatların nəticəsi olaraq göstərilir ki, ibtidai sinif şagirdlərinin vətənpərvərlik - Vətənə məhəbbət ruhunda tərbiyə olunması üçün onlara doğma Vətənimizin nələrə qadir və sahib olduğunu duydurmaq, göstərmək və öyrətmək lazımdır. Bu məsələlər ibtidai siniflərdə tədris olunan bütün fənlər kimi, "Təsviri incəsənət" fənni vasitəsi ilə də həyata keçirilir. Həmin fənnin tədrisi prosesində ibtidai sinif şagirdləri doğma Vətənimizin - suveren Azərbaycan Respublikasının təbiəti, sənətkarları, milli bəzək əşyaları, Azərbaycan xalqına məxsus milli mənşəli naxışlar və məişət əşyaları, Vətən torpağının maddi sərvətləri və nemətləri, qədim incəsənət nümunələri barədə ilkin ən zəruri məlumatlara yiyələnir, eyni zamanda onlarda Vətənə məhəbbət, Vətənin bu maddi və mənəvi sərvətlərində gözü olan düşmənlərə qarşı isə nifrət hissi tərbiyə olunur. İbtidai sinif şağirdlərinə "Təsviri incəsənət" fənnini tədris edən müəllimlərin bu işdə fərdi fəallığı, səriştəsi və pedaqoji ustalığı, ilk növbədə isə onun emosional boyalarla zənginləşdirdiyi ifadə tərzi, canlı və obrazlı sözləri şagirdlərə xüsusilə güclü təsir göstərir.

İbtidai siniflərin "Təsviri incəsənət" fənninə dair mövcud dərsliklərində verilmiş mövzuları şagirdlərin vətənpərvərlik tərbiyəsi baxımından aşağıdakı kimi qruplaşdırmağı məqsədəuyğun saymışıq (cədvəl 5).

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, şagirdlərə Vətən elminin, incəsənətinin öyrədilməsində ibtidai siniflərdə tədris olunan bütün fənlərin hamısının böyük əhəmiyyəti vardır. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsində təsviri incəsənət materiallarından istifadə onların gələcək həyatında aparıcı qüvvə olacaqdır.

Dissertasiya işinin **"**İbtidai təhsil səviyyəsində şagirdlərin vətənə məhəbbət ruhunda tərbiyəsinə dərsdənkənar tədbirlərin təsiri" adlanan **üçüncü fəslinin "**Dərsdənkənar tərbiyə işlərinin məzmunu və mahiyyəti" adlı **birinci yarımfəslində** qeyd olunur ki, təlimin əsas təşkilat forması olan dərsin təlim-tərbiyə işində nə qədər böyük rolu

**Cədvəl 5**

**“Təsviri incəsənət” fənninə dair dərsliklərdə verilmiş mövzuların şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından təsnifatı**

| | | | |
|---|---|---|---|
| 1 | Doğma təbiət | II sinif | “Təbiət və rəssam”, “…Qışın möcüzələri”, “Yurdumuza bahar gəlir”, “Təbiəti qorumaq”, “Güllərin möcüzəsi” |
| | | III sinif | «Təbiətin emalatxanasında», «Təbiətin rəngi», «Təbiətdə zəngin əhval-ruhiyyə», «Təbiətdə ritm»; |
| 2 | Sənətkarın emalatxanası | II sinif | Mikayıl Abdullayev, Lətif Feyzullayev, Nadir Əbdürrəhmanov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Tahir Salahov, Davud Kazımov, Rövşən Məmmədov, Telman Abbasov, Bəhruz Kəngərli, Əzim Əzimzadə, Zakir Əhmədov, Qəzənfər Xalıqov, Cəlal Qaryağdı |
| | | III sinif | Maral Rəhmanzadə, Kamil Xanlarov, Rasim Babayev, Nəcəfqulu İsmayılov, Mirzəli Mirqasımov |
| | | IV sinif | Əyyub Məmmədov, Mikayıl Abdullayev, Elmira Şahtaxtinskaya, Ələkbər Rzaquliyev, Zöhrab Cabbarov, Məhəmməd Orucov, Ömər Eldarov, Toğrul Nərimanbəyov |
| 3 | Bəzək əşyaları və naxışlar | II sinif | “Bəzək əşyaları, naxış”, “Nəbati naxışlar”, “Buta naxışı” |
| | | III sinif | “Hazır bəzək əşyası”, “Dəbilqə və qalxanın bəzədilməsi”, Şüşə qabların düzəldilməsi, taxta, saxsı və metal üzərində naxış, şəbəkə, mozaika, vitraj, ağacoyma |

| | | | |
|---|---|---|---|
| | | IV sinif | Misgərlik, süjetli xalçalar, buta, xalça fraqmentləri |
| 4 | Tarixi abidələr və məişət mövzuları | II sinif | «Məişət əşyaları», «Stol, gülqabı», «Qədim şəhər» |
| | | III sinif | “Evimizdəki qab-qacaq”, “Azərbaycan misgərlərinin hazırladığı qaşlar”, “C.Cabbarlı abidəsi”, “Qız qalası”, “Qoşa qala qapısı", “Həsən xanın sarayı”, “Nizami Gəncəvinin abidəsi” |
| | | IV sinif | “Lahıcın mis qabları”, “Daş büt”, “Qoç fiqurları”, “Göy günbəz”, “Qarabağ türbəsi”, “Atəşgah” məbədi, “Xudafərin körpüsü”, “Ramana - qala qəsri”, “Mərdəkan qala qəsri”, “Karvansaray”, “Mis kassa”, “Şəki xan sarayı” |

olsa da, işin yalnız bu forması ilə kifayətlənmək olmaz. İbtidai sinif şagirdlərinin bilik, bacarıq və vərdişlərə yiyələnməsində, eləcə də Vətənə məhəbbət və sədaqət ruhunda tərbiyə edilməsində onlarla aparıan dərsdənkənar işlərin də böyük əhəmiyyəti vardır. Bu iş əslində dərs zamanı şagirdlərlə görülən işlərin davamı kimi başa düşülməli və bu məqsədlə seçilən hər bir tədbir elmi-pedaqoji mahiyyət daşımalıdır.

Dərsdənkənar tədbirlər təşkil edilərkən şagirdlərin arzusu, həvəsi, imkanları hökmən nəzərə alınmalı, həmin tədbirlərdə onların könüllü iştirakı təmin edilməli, hər bir şagirddə keçiriləcək tədbirdə iştirak etmək marağı oyadılmalıdır. Bu isə, təbii ki, ilk növbədə tədbirin təşkilatçısı olan müəllimdən böyük pedaqoji məharət tələb edir.

Təcrübə göstərir ki, dərsdənkənar işlərin səmərəli və rəngarəng formalarından yaradıcı istifadə edilməsi ibtidai sinif şagirdlərinin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulmasına müsbət təsir göstərir. Tədbirlərin təşkili və keçirilməsində iştirak şagirdlərin görüş dairəsini genişləndirir, onlarda təşkilatçılıq, fəallıq, müstəqillik və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onlara düzgün davranış

vərdişləri aşılayır və Vətənə məhəbbət - vətənpərvərlik hissi tərbiyə edir. Dissertasiya işinin bu yarım fəslində dərsdənkənar tədbirləririn əsas mahiyyəti, prinsipləri ilə yanaşı, onların ən geniş və əhəmiyyətli formaları da göstərilmişdir.

Dissertasiya işinin üçüncü fəslinin “Bədii mətnlərin müzakirəsinin ibtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsinə təsiri” adlanan **ikinci yarımfəsli** isə müxtəlif məzmunlu bədii mətnlərin şagirdlərlə kollektiv müzakirəsinin ibtidai sinif şagirdlərinin vətənpərvərlik ruhunda tərbiyəsi imkanlarına, ondan bir pedaqoji vasitə kimi necə istifadə etməyin yollarının tədqiqinə həsr olunmuşdur.

Apardığımız tədqiqatlar göstərir ki, ibtidai siniflərdə ədəbi-bədii əsərlərin kollektiv müzakirəsi şagirdlərin yaş və anlaq səviyyələrinə uyğun şəkildə, səmərəli, dolğun təşkil edildikdə, mütəşəkkil, ardıcıl və sistemli aparıldıqda, mövzu ölkəmizin təbii xüsusiyyətləri, iqtisadi, tarixi və mədəni inkişafı ilə düzgün əlaqələndirildikdə onlarda Vətənə məhəbbət, sevgi hissi oyatmaq imkanı daha keyfiyyətlə təmin olunur. İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsi məqsədi ilə bədii əsərlərin müzakirə üçün seçilməsinə sadə bir iş kimi yanaşmaq olmaz. Bu tədbirin keçirilməsi müəllimdən böyük ciddilik və məsuliyyət tələb edir. Müzakirə üçün seçilmiş bədii əsərlər öz ifadə dilinin sadəliyi, anlaşıqlığı və cəlbediciliyi, obrazlarının rəngarəngliyi ilə seçilməli, həm də şagirdlərin yaş və maraq səviyyəsinə müvafiq olmalıdır. Nəzərə almaq lazımdır ki, müzakirələr şagirdlərin yalnız bilik dairəsini genişləndirməklə məhdudlaşmır, həm də onların mənəvi cəhətdən inkişafına təkan verir. Müzakirə olunan bədii əsər dolğun məzmunlu, maraqlı, şən və əyləndirici olmalı, şagirdlərdə emosional hisslər oyatmalıdır ki, onların qəlbinə yol tapa bilsin.

İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyəsində Vətənə, vətənpərvərliyə aid dərsdənkənar etik söhbətlər, etik müsahibələr, məruzə və mühazirələr də çox böyük imkanlara malikdir. Bu tip söhbətlər şagirdlərdə vətəndaşlıq yetkinliyi, vətəndaşlıq ləyaqəti, vətəndaşlıq qüruru tərbiyə etməklə, onların siyasi, hüquqi və əxlaqi baxımdan şüurunun inkişafına, vətəndaşlıq

şüuru və yetkinlik dəyanətinin formalaşmasına səbəb olur.

İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsində məktəbdə dərsdənkənar vaxtda ədəbi-bədii gecələrin keçirilməsi, teatr tamaşalarına, sərgi salonlarına, muzeylərə kollektiv gedişin, kinofilmlərə birlikdə baxışın təşkili də böyük əhəmiyyət kəsb edir.

Dissertasiya işinin üçüncü fəslinin "Şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsində görkəmli şəxsiyyətlərlə keçirilən görüşlərin rolu" adlı **üçüncü yarımfəslində** göstərilir ki, öz sevimli qəhrəmanları, görkəmli şəxsiyyətlər, Milli Qəhrəmanlar və onların ailələri ilə üzbəüz görüşmək, onların canlı səsini eşitmək, söhbətlərinə qulaq asmaq ibtidai sinif şagirdlərinə daha güclü, daha unudulmaz təsir bağışlayır. Bu görüşlər şagirdlərdə Azərbaycan xalqının tarixi inkişaf yolu, onun sosial, iqtisadi, mənəvi-əxlaqi təcrübəsi haqqında konkret biliklər yaradır, ölkəmizdə cərəyan edən ictimai-iqtisadi-siyasi hadisələri keçmiş, indi və gələcəklə qarşılıqlı əlaqədə dərk etmək qabiliyyəti inkişaf etdirir, mənəvi dəyərlər barədə biliklər sistemi formalaşdırır, öz xalqının tarixinə və mədəniyyətinə hörmət və marağı artırır.

Müxtəlif məzmunlu ekskursiyalar da ibtidai sinif şagirdlərinin vətənpərvərlik ruhunda tərbiyəsinə güclü təsir göstərən amillərdən biridir. Məhz bu səbəbdən də dissertasiya işinin üçüncü fəslinin Ekskursiyalar - ibtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyə olunması formalarından biri kimi" adlı **dördüncü yarımfəsli** həmin məsələyə həsr olunmuşdur.

Aparılan tədqiqatlar nəticəsində göstərilir ki, tarix, incəsənət, ədəbiyyat və Azərbaycan xalqının döyüş və rəşadətini əks etdirən muzeylərinə, tarixi yerlərə ekskursiyaların təşkili ibtidai sinif şagirdlərində vətənpərvərlik hissinin tərbiyə olunmasına güclü təsir göstərir. İbtidai sinif şagirdləri ilə gündəlik ünsiyyət sayəsində aydın olur ki, onlar muzeylərdə xalqımızın şanlı döyüş və əməklə bağlı keçmişi ilə, bizim günlərin qəhrəmanlıq rəşadəti ilə bağlı olan eksponatlara çox böyük maraq göstərirlər. Müasir dövrdə ekskursiyalar sosial əhəmiyyətinə, tərbiyəvi təsirinə, daha çox kollektivi əhatə etməsinə, eləcə də iş vasitələrinin, forma və metodlarının rəngarəngliyinə görə ibtidai sinif şagirdlərinin milli

tərbiyəsi işinə kompleks şəkildə yanaşmada mühüm yer tutur.

Təbiətşünaslığa, ədəbi mövzulara, təsviri sənət, musiqi, kino, tarix, arxitektura, teatr tamaşalarına həsr olunmuş ekskursiyalar ibtidai sinif şagirdlərində gözəlliyi hiss edib başa düşmək qabiliyyətini formalaşdırır, onlarda bədii zövq, vətənpərvərlik hissi, yüksək mənəvi keyfiyyətlər tərbiyə edir.

Tarix və mədəniyyət abidələrinə ekskursiyaların təşkili ibtidai sinif şagirdlərində Vətənə dərin məhəbbət hisslərinin aşılanması işini xeyli asanlaşdırır. Belə ekskursiyalar zamanı həmin şagirdlər xalqımızın, Vətənimizin tarixinin nə qədər zəngin olduğunu, onun gözəlliyini və əzəmətini duyur, onu ürəkdən sevməyin nə qədər vacib olduğunu dərk edirlər.

Tərbiyəvi xarakterli ekskursiyalarda müəyyən qədər bilik əldə edilsə də, tərbiyəedici cəhət, mənəvi dəyərlərin mənimsənilməsi işi daha üstünlük təşkil edir.

Bütün bu göstərilənlərə əsaslanaraq deyə bilərik ki, siniufdənkənar (dərsdənkənar) tədbirlərin müntəzəm olaraq keçirilməsi ibtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyəsi işinin tələb olunan səviyyədə həyata keçirilməsini təmin edər, onların Vətənə, ana torpağa, elə-obaya bağlılığını artırar.

## Nəticə

Təqdim olunan dissertasiya işində apardığımız tədqiqatlar aşağıdakı yekun nəticələri söyləməyə imkan verir:

1. İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət - vətənpərvərlik ruhunda tərbiyəsi işinin ayrı-ayrı sahələri indiyədək müxtəlif tədqiqatçılar tərəfindən araşdırılsa da, bu problem çagdaş dövr üçün kompleks şəkildə tədqiq edilməmişdir.
2. İnsanlarda Vətənə məhəbbət hissinin tərbiyə edilməsinə lap erkən yaşlardan, o cümlədən ibtidai siniflərdən başlanılmalıdır. Çünki gələcək vətəndaşın bir şəxsiyyət kimi keyfiyyətləri əsasən, məhz bu yaşlarda formalaşır.
3. İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsində təlim prosesində, xüsusilə də tədris olunan fənlərdə bu hisslərin düzgün əks olunması böyük əhəmiyyət kəsb edir.

İbtidai siniflərdə tədris olunan “Azərbaycan dili”, “Həyat bilgisi”, “Musiqi”, “Texnologiya”, “Təsviri incəsənət” fənlərinə dair dərsliklərdə şagirdləri Vətənə məhəbbət ruhunda tərbiyə edə bilən lazımi qədər material vardır. Tədris prosesində həmin materiallardan səmərəli şəkildə istifadə etmək, öz tərbiyəvi fəaliyyətlərində bu materialların imkanlarından optimal şəkildə bəhrələnmək üçün müəyyənləşdirilmiş yollardan istifadə etmək hər bir sinif müəllimi üçün başlıca meyar olmalıdır.

4. İbtidai sinif şagirdlərinin mənəvi anlayış, bilik və təsəvvürlərə yiyələnmə səviyyələri müəyyənləşdirilərkən onların borc, məsuliyyət, cavabdehlik, cəmiyyətdə, ailədə, məktəbdə davranış qaydaları, vicdan, ədalət, şərəf və ləyaqət, düzlük və doğruçuluq, sadəlik və təvazökarlıq, böyüyə hörmət, bir sözlə Vətənə məhəbbət, ictimai fəallıq mövqeləri diqqətlə öyrənilməlidir.
5. İbtidai siniflərdə “Azərbaycan dili” fənninin tədrisi prosesində istifadə olunan mövcud dərsliklərdə şagirdlərin xalqımızın ən ali, milli-mənəvi dəyərlərindən biri olan Vətənə məhəbbət, Vətənə sadiqlik ruhunda tərbiyəsi üçün geniş imkanlar və zəngin materiallar vardır.
6. İbtidai sinif şagirdlərinə mənsub olduqları xalqın tarixi, elmi, mədəniyyəti, görkəmli şəxsiyyətləri, qəhrəmanları barədə onların anlaya biləcəyi səviyyədə məlumatların verilməsi onların Vətənə məhəbbət ruhunda tərbiyəsi işi üçün çox vacibdir. Belə örnək və nümunələr ibtidai sinif şagirdlərində Vətənə məhəbbət, sevgi, vətənin müstəqilliyi və inkişafı üçün müsbət hissləri, o cümlədən mərdlik, igidlik, yaradıcılıq, əməksevərlik hisslərini tərbiyə edir.
7. İbtidai təhsil səviyyəsində şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyəsində onlarla dərsdənkənar tədbirlərin keçirilməsi mühüm rol oynayır. Müntəzəm olaraq keçirilən belə tədbirlər: ədəbi-bədii mətnlərin müzakirəsi, müharibə, əmək qəhrəmanları və görkəmli şəxsiyyətlərlə görüşlər, Dövlət Bayrağı Meydanına, Şəhidlər Xiyabanına, tarixi yerlərə ekskursiyaların təşkili ibtidai sinif şagirdlərinin Vətən uğrunda mübarizənin müqəddəs iş olduğunu dərk etməsinə səbəb olur, onları Vətən naminə mərdlik və qəhrəmanlıq göstərməyə təhrik edir.
8. İbtidai təhsil səviyyəsində şagirdlərin yaş və bilik səviyyəsinə

uyğun olaraq onlarla kompleks tədbirlərin həyata keçirilməsi həmin şagirdlərin Vətənə məhəbbət, vətənpərvərlik hisslərinin, duyğularının inkişafına güclü təsir göstərməklə, onlarda vətənpərvərlik, vətəndaşlıq, Vətən, yurd, onun qorunmasının vacibliyi və s. haqqında dolğun təsəvvürlər yaradır və onlar əsil vətənpərvərliyin nələrdən ibarət olduğunu dərk edir.

9. Dövlət müstəqilliyi şəraitində ibtidai təhsil səviyyəsində şagirdləri Vətənə məhəbbət ruhunda tərbiyə etmək təhsil sistemimizin vacib vəzifələrindəndir və bu işə diqqətin daha da artırılması, tədris olunan fənlərin dərslik və proqramlarına Milli Qəhrəmanlarımız və Qarabağ Şəhidləri barədə nümunələrin daha geniş şəkildə daxil edilməsi, Vətənə məhəbbət tərbiyəsi ilə bağlı olan mövzuların sonunda məzmuna uyğun və şagirdlərin vətənpərvərlik tərbiyəsinə xidmət edən sual və tapşırıqların verilməsi; vətənpərvərlik məzmununda fakültativ kursların dairəsinin əhəmiyyətli şəkildə genişləndirilməsi; tədris prosesində və dərsdənkənar tədbirlər sistemində bəşəri və milli-mənəvi dəyərlərin şagirdlərə qarşılıqlı, əlaqəli və vəhdətdə aşılanması lazımdır.

## Dissertasiyanın əsas nəticələri aşağıdakı əsərlərdə əks olunmuşdur:


1. S.Ə. Abdinova. Məktəblilərdə mərdlik və qəhrəmanlıq tərbiyəsinin mənbələri. / "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda Beynəlxalq Elmi Konfransının Materialları, Bakı, 5-6 dekabr 2014, s. 267
2. S.Ə. Abdinova. Şagirdlərin milli qəhrəmanlara məhəbbət ruhunda tərbiyəsi təcrübəsindən. // Məktəbəqədər və İbtidai təhsil, 2015, № 2, s. 64-67.
3. S.Ə. Abdinova. Təhsilalanın vətənə məhəbbət ruhunda tərbiyə edilməsi. // Azərbaycan Məktəbi, 2015, № 4, s. 67-72.
4. S.Ə. Abdinova. Azərbaycan tarixində qəhrəmanlıq səhifələri. / "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması" mövzusunda VII Respublika elmi-praktiki konfransının materialları, Bakı, 07 may 2015, s. 502-505.

5. S.Ə. Abdinova. Qəhrəmanlıq tariximizdən. / "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" Ümumrespublika elmi-praktiki konfransının materialları, Bakı, 4-5 may 2016, s. 205-206.
6. S.Ə. Abdinova. İbtidai sinif şagirdlərinin milli qəhrəmanlara məhəbbət ruhunda tərbiyəsində sinifdənkənar tədbirlərin rolu. / "Çağdaş dövr və sosial elmlərin aktual problemləri" Ümumrespublika elmi-praktiki Konfransının materialları, Bakı, 19 dekabr 2016, s. 274-275.
7. S.Ə. Abdinova. Şagirdlərdə vətənə məhəbbət hisslərinin tərbiyəsi. // Azərbaycan Məktəbi, 2017, № 2, s. 44-48.
8. S.Ə. Abdinova. Milli qəhrəmanlara məhəbbət tərbiyəsindən. / "Çağdaş dövr və təhsil" mövzusunda IX Ümumrespublika elmi-praktiki konfransının materialları, 04 may Bakı, 2017, s. 247.
9. S.Ə. Abdinova. Şagirdlərdə vətənə məhəbbət hissinin tərbiyəsi. // Məktəbəqədər və İbtidai təhsil, 2017, № 2, s. 64-66.
10. S.A. Abdinova. One the question of pedagogical work on education love for the country among students in primary. // Збірник наукових праць педагогічні науки – Херсон 2017, В. LXXV, Т. 2, с. 8-10.
11. С.А. Абдинова. О методе подражания национальному героизму в воспитании любви к родине среди учащихся начальной школы. // Азимут научных исследований – Тольятти. 2017, Т. 6, № 2 (19), с. 11-12.
12. S.Ə. Abdinova. İbtidai siniflərdə Azərbaycan dili fənninin tədrisi prosesində şagirdlərin vətənpərvərlik tərbiyəsinin yolları / "The Great Czech Educator Jan Amos Komensky: A Classik a Modern Approax to Education" Beynəlxalq Konfransının materialları, - Bakı. 4-5 aprel, 2019, s. 369-372.
13. С.А. Абдинова. О некоторых внеклассных способах воспитания любви к Родине у учащихся начальных классов общеобразовательных школ. / Материалы IV Международной Научно-Практической Конференции "Образ Родины: содержание, формирование, актуализация", Москва. 18 сентябрь 2020, с. 299- 301

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2021-ci il tarixində saat 14⁰⁰-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1000, Bakı şəhəri, Ü.Hacıbəyli, 68.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Əsas Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.09.2021

Kağızın formatı: 60x84

Həcm: 42781

Tiraj: 100